# 10 il arxada qaldı, qarşıda yeni hədəflər var

***Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin yaradılmasından 10 il ötdü. Bu illər ərzində qazanılmış nailiyyətlər ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinin tərkib hissəsini təşkil etmişdir. Məlumat üçün bildirək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 fevral 2006-cı il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Dövlət Tikinti və Arxitektura Komitəsi ləğv edilərək, onun əsasında Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yaradılmışdır. Bu illər ərzində komitənin fəaliyyəti ölkə rəhbərinin daim diqqət mərkəzində olmuşdur. Şəhərsalma sahəsində görülmüş işlərlə daha yaxından tanış olmaq üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2010-cu ildə Dövlət Şəhərsalma və Arxitektura Komitəsində olmuş və şəhərsalma ilə bağlı öz tövsiyə və tapşırıqlarını vermişdir. Bütün bunlar komitənin fəaliyyətinin genişləndirilməsi üçün güclü stimul yaratmışdır.***

Ötən on ildə görülmüş işlərə, həyata keçirilmiş tədbirlərə nəzər yetirdikdə bunu aydın görmək mümkündür. Əhalinin həyat və fəaliyyətinin əlverişli şəraitlə təmin olunması məqsədilə, məskunlaşma sistemlərinin səmərəli formalaşdırılması, ərazilərin, şəhərlərin və digər yaşayış məntəqələrinin layihələndirilməsi, tikintisi və abadlaşdırılması, onların sosial-iqtisadi, mühəndis-nəqliyyat infrastrukturunun inkişafı, təbiətdən səmərəli istifadə edilməsi, tarixi-mədəni irsin və ətraf mühitin mühafizəsi sahəsində dövlətin məqsədyönlü fəaliyyətinin təmin olunması üçün komitə məqsədyönlü, davamlı tədbirlər həyata keçirmişdir.

İlkin olaraq qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Aran, Gəncə-Qazax, Quba-Xaçmaz, Lənkəran, Şəki-Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonları üzrə "Məskunlaşmanın, təbiətdən istifadənin və məhsuldar qüvvələrin ərazi təşkilinin regional planlaşdırma sxemi" hazırlanmış və aidiyyəti təşkilatlar ilə razılaşdıraraq Nazirlər Kabinetinə təqdim edilmişdir. Həmin proqrama əsasən komitənin sifarisi ilə beynəlxalq məsləhətçilərin iştirakı ilə "Böyük Bakının regional inkişaf planı" və "Məxsusi Bakının ərazidən istifadə və zonalaşdırma planı" hazırlanmış və aidiyyəti təşkilatlar ilə razılaşdıraraq təsdiq edilmək üçün Nazirlər Kabinetinə göndərilmişdir.

Bakı şəhəri ətrafında yerləşən yaşayış məntəqələri ilə birlikdə tarixən mədəni və iqtisadi baxımdan vahid məskunlaşma sistemi təşkil edir. Buna görə bütün Abşeron yarımadası paytaxtla birlikdə "Böyük Bakı Regionu" adlanır. Bu ərazinin dayanıqlı inkişafını təmin edən layihə həllərinin qəbul edilməsi baxımından "Böyük Bakı regionu"nun vahid ərazi planlaşdırılma sənədinin hazırlanması vacib idi. "Böyük Bakının regional inkişaf planı"nın başa çatmasına baxmayaraq, bu layihə çərçivəsində işlər davam etdirilir. Belə ki, komitənin sifarişi ilə 2015-ci ilin sentyabr ayından Bakı şəhərinin bütün inzibati ərazisi üçün "Ərazidən istifadə və zonalaşdırma planı"nın hazırlanmasına başlanılıb və bu layihənin ilin sonuna qədər başa çatması gözlənilir.





Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən ölkənin 42 şəhəri üzrə baş plan sənədləri sifariş edilmişdir. Bunlardan 37 şəhərin baş planı artıq tərtib edilmiş, 5 şəhər (Ağcabədi, Göyçay, Xaçmaz, Salyan və Şəmkir) üzrə isə layihə işləri davam edir. Yaxın beş ildə qalan şəhərlərin baş planlarının da sifariş edilməsi planlaşdırılır.

Dövlət şəhərsalma kadastrının yaradılması və aparılması ilə bağlı tədbirləri də xüsusi olaraq qeyd etmək lazımdır. Komitənin sifarişi ilə 2013-cü ildə pilot layihə kimi Şirvan şəhərində dövlət şəhərsalma kadastrının yaradılması üzrə işlərə başlanmışdır. Bu layihənin tərkibinə yeni tikilən obyektlərin reyestrinin aparılması, şəhərin baş və müfəssəl planlarının hazırlanması işləri də daxildir. Hazırda Şirvan şəhərində dövlət şəhərsalma kadastrının yaradılması layihəsi üzrə işlər davam etdirilir. Gəncə şəhəri üzrə də bu işə başlanmış və 2017-ci ildə onun başa çatdırılması planlaşdırılır.

Şəhərsalma və tikinti sektorunda sürətlə gedən prosesləri nizamlamaq və tarazlaşdırmaq, əhali üçün sağlam ətraf mühitin yaradılması məqsədilə, həmçinin bu sahədə ictimaiyyətin yaxından iştirakını təmin etmək üçün Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi təsdiq edilmiş və Azərbaycan Respublikası Prezidentinin 4 sentyabr 2012-ci il tarixli fərmanı ilə 2013-cü ilin əvvəlindən qüvvəyə minmişdir.

Təsdiq olunmuş sənədlərdən biri də "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları"dır. Tikintilərin dövlət reyestri tikilən, istismar edilən, sökülən tikinti obyektləri barədə və ərazi planlaşdırılmasının sabitliyinin təmin edilməsi məqsədi ilə planlaşdırılacaq ərazidə tikintinin həyata keçirilməsi ilə, habelə, həmin ərazidə yerləşən torpaq sahələrində onların dəyərini əhəmiyyətli şəkildə artıran dəyişikliklər edilməsi ilə bağlı qadağaların qeydiyyatını aparmaqdan ibarətdir. Bu günə qədər komitə tərəfindən 369 tikinti obyekti müvafiq kod verilməklə, dövlət reyestrində qeydiyyata alınmışdır.

Şəhərsalma (ərazi planlaşdırılması) və memarlıq sahəsində xarici əlaqələri genişləndirmək və müxtəlif ölkə və təşkilatların bu sahədə təcrübəsini öyrənmək sahəsində görülən işlər də təqdirəlayiqdir. Bu məqsədlə komitə fəaliyyətə başladığı dövrdən MDB ölkələrinin inşaat fəaliyyəti sahəsində əməkdaşlıq üzrə hökumətlərarası şura ilə əməkdaşlıq edir və komitənin əməkdaşları hökumətlərarası şuranın müxtəlif şəhərlərdə keçirilən iclaslarında yaxından iştirak etmişlər. Şuranın 26-cı və 34-cü iclasları isə komitənin təşkilatçılığı ilə Bakı şəhərində keçirilmişdir.

Komitə beynəlxalq əlaqələr sahəsində fəaliyyətini ayrı-ayrı dövlətlərlə ikitərəfli əməkdaşlıq formatında da yaratmışdır. Belə ki, 2011-ci ildə komitə ilə Belarusun Tikinti və Arxitektura Nazirliyi arasında şəhərlərin baş plan layihələrinin işlənilməsi, ərazilərin planlaşdırılması və tikilib abadlaşdırılması sahəsində təcrübə mübadiləsinin aparılmasına dair razılıq əldə olunmuşdur. Bununla yanaşı, komitənin xarici əlaqələri həm də Azərbaycan Respublikası hökuməti ilə Belarus, Çexiya, Əfqanıstan, Səudiyyə Ərəbistanı, Rusiya Federasiyasının Tatarıstan, Moskva və Sankt-Peterburq vilayətləri hökumətləri arasında imzalanmış saziş, müqavilə və əməkdaşlıq proqramları çərçivəsində aparılmışdır.

Yuxarıda göstərilənlərlə yanaşı, 2009-2014-cü illərdə ümumi nəzarət qaydasında Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu ərazilərində inşa edilən obyektlərə də mütəmadi şəkildə baxış keçirilmiş və mövcud norma və qaydaların tələblərinin pozulmasına yol verilmiş obyektlər müəyyənləşdirilərək tədbir görülməsi üçün müvafiq şəhər və rayon icra hakimiyyəti başçılarına və onların memarlıq xidmətlərinə müraciətlər olunmuşdur.

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 2013-cü ilin əvvəlindən qüvvəyə minməsi ilə bağlı "Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi qaydaları" yenidən hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2014-cü il tarixli fərmanı ilə təsdiq edilmişdir. Yeni qaydalarda dövlət şəhərsalma nəzarətinin səyyar və kameral formada aparılması nəzərdə tutulmuşdur.

2015-ci ildə komitə tərəfindən respublikanın 16 rayonunda səyyar qaydada dövlət şəhərsalma nəzarəti həyata keçirilmişdir.

Ölkədə şəhərsalma prosesi sürətlə davam etməkdədir. 2016-ci il yanvarın 18-də iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirədə Prezident İlham Əliyev demişdir: "Tikinti sektoru tam sərbəst şəkildə inkişaf etməlidir. Əlbəttə ki, şəhərsalma qaydalarına riayət etmək şərti ilə." Bu sözlər komitə işçilərini şəhərsalma sahəsində qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirməyə, ötən 10 ildə olduğu kimi, bundan sonra da daha məsuliyyətlə çalışmağa sövq edir.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***